# Məmməd Səid Ordubadi irsinə dövlət qayğısı

- ***1953-cü ildən Naxçıvan Muxtar Respublika Kitabxanasına Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi, böyük ədib Məmməd Səid Ordubadinin adı verilmişdir.***
- ***Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə ədibin 100 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş,***
- ***Ordubad şəhərində yaşadığı ata ocağı ev-muzeyə çevrilmiş (1972),***
- ***1979-cu ildə Bakıda ədibin Xatirə Muzeyi yaradılmışdır.***
- ***Xatirəsini əbədiləşdirmək üçün ölkəmizdə, o cümlədən Naxçıvanda bir neçə küçəyə, mədəniyyət müəssisələrinə, kitabxanalara Ordubadinin adı verilmiş,***
- ***Onun adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasının qarşısında yazıçının büstü ucaldılmışdır.***
- ***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin latın qrafikası ilə nəşr edilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, böyük yazıçının seçilmiş əsərləri oxuculara təqdim edilib.***
- ***Məmməd Səid Ordubadinin 140 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 10 aprel 2012-ci il.***
- ***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 aprel 2012-ci il tarixli Sərəncamı ilə ədibin 140 illik yubileyi ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilib.***
- ***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Məmməd Səid Ordubadi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.***